# İstirahət məkanlarına çevrilən Bakı parkları

Dövlətimizin başçısının tapşırığı ilə paytaxt Bakıda parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması, yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə ardıcıl tədbirlər davam etdirilir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nərimanov rayonu ərazisində yenidən qurulan Nərimanov parkı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir. Nərimanov parkının yenidən qurulması bu il COP29-a evsahibliyi edəcək ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır.

12



## Yayın qızmar günlərində bu yerlərin əvəzi yoxdur

# İstirahət məkanlarına çevrilən Bakı parkları

## Yayın qızmar günlərində bu yerlərin əvəzi yoxdur

**Paytaxt sakinlərinin çoxu yay aylarında məzuniyyət və istirahət günlərini səmərəli keçirmək üçün Bakı ətrafı kənd və qəsəbələrdəki bağ evlərinə, ölkəmizin bölgələrində təbiətin qoynunda istirahət mərkəzlərinə, sanatoriya və müalicəxanalara, ya da xarici ölkələrə, uzaq şəhərlərə üz tuturlar.**







Bəs hazırda yayın bu qızmar günlərində Bakıda ailə qayğıları və ya işi ilə əlaqədar harasa gedə bilməyənlər istirahət saatlarını, şənbə və bazar günlərini necə keçirirlər? Onu da qeyd edək ki, yay mövsümündə istər bölgələrdən, istərsə də qonşu xarici ölkələrdən Bakıya gələnlərin də sayı çoxdur. Çünki Bakı və onun ətraf qəsəbələri gündən-günə gözəlləşir, abadlaşır, insanların sosial tələblərinin hərtərəfli təmini və istirahətlərinin mənalı keçməsi üçün lazımi infrastruktur yaradılır. Belə istirahət parklarından biri - əsaslı təmir və yenidənqurmadan sonra ötən ayın birinci yarısında paytaxtın Nərimanov rayonunda, açılışında Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi Nərimanov parkıdır.

Ərazisi 4,1 hektar olan bu park gəzinti və əyləncə baxımından şəhər sakinləri üçün sevimli məkandır. Xatırladaq ki, park nadir dizaynda yenidən qurulub. Burada müxtəlif istirahət guşələri, əyləncə qurğuları yaradılıb, o cümlədən uzun müddət yararsız vəziyyətdə olan fəvvarə meydançası bərpa edilib. Bir sözlə, park göz oxşayır. Odur ki, buraya istirahət saatını səmərəli keçirmək uçun gəlib-gedənlərin sayı çoxalıb. Parkda olarkən oğlanları Əli və Muradla gəzintidə olan Zeynal Arzumanovla həmsöhbət oluruq. O dedi:

- Uzun illərdir parkın yaxınlığında yaşayıram, açığı deyim ki, əvvəllər bura saqqız, tum, şar və sairə satan alverçilər yığnağı idi, necə deyərlər, park dükanbazarı xatırladırdı. Amma indi - təmirdən sonra mənzərə tamam dəyişib. Parkın ümumi görkəminə xələl gətirən tikili və qurğular ərazidən götürülüb, yerində salınan yeni yaşıllıq sahələri, dekorativ kollar insanın ruhunu oxşayır. Mövcud ictimai-iaşə obyektlərinin fasadları müasir üslubda təmir edilib, yeni işıqlandırma sistemləri, idman qurğuları, uşaq-əyləncə meydançası yaradılıb, habelə yağış sularının axıdılması üçün xətlər çəkilib. Deyə bilərik ki, parka əylənməyə gələnlərə, xüsusən də uşaq gəzintiləri üçün gözəl şərait yaradılıb.

Ümumiyyətlə, dövlətimizin başçısının tapşırığı ilə paytaxt Bakıda parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması, yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə ardıcıl tədbirlər davam etdirilir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nərimanov rayonu ərazisində yenidən qurulan Nərimanov parkı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir. Nərimanov parkının yenidən qurulması bu il COP29-a evsahibliyi edəcək ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır.

Bakının gəzməli, görməli yerlərindən söhbət düşəndə Xəzərin mirvari boyunbağısı adlandırılan Sahil bağı - Bakı bulvarı da yada düşür. 106 ilə yaxın yaşı olan 3,5 hektarlıq bu bağ Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü və sərəncamına əsasən genişləndirilərək 16 hektara çatdırılıb. Bu ərazidə görülən iş, yaradılan şərait göz oxşayır. Gəzintiyə gələnlərin əksəriyyəti sahil bağının gecə füsunkarlığından, gəzməli və görməli yer olmasından danışırlar. Ziyarətçilər Vətən müharibəsinin qələbəsindən, rəşadətindən bəhs edən Hərbi Qənimətlər Parkı ilə tanış olmamış geri dönmürlər. Burada gəzintidə olanlardan biri də Almaniyadan Bakıya istirahətə gəlmiş Nailə Novruzova ilə görüşdük. Nailə xanım Almaniyada yaşayır. Amma hər il yay aylarını tələbə dostları Gövhər, Əməl, Zemfira, Nailə, Xavər və digərləri ilə Bakıda, Qubada, Qazaxda, Şəmkirdə, İsmayıllıda, həmçinin respublikamızın başqa gəzməli və görməli yerlərində keçirir.

Bakının bugünkü gözəlliyindən, füsunkarlığından Gövhər xanımla Zemfira xanım ağızdolusu danışırlar. Şəhərin görməli yerlərini mobil telefonlarına çəkdiklərini göstərdilər. Sonda Nailə xanım dedi:

- Bundan sonra hər il yay aylarında ailəliklə Bakıya gəlməyi, Xəzərin ləpədöyənində, Qubada, Qusarda, xüsusən də Qarabağda, Şuşada, Xankəndidə dincəlməyi qərara almışıq. Müxtəlif ölkələrdə olmuşam. Amma doğma Vətənim Azərbaycan, Bakı doğrudan da çox gözəldir.

Bakını gözəlləşdirən, onu belə ürəyəyatımlı edən şəhərdə aparılan möhtəşəm quruculuq işləri, ətraf qəsəbələrdə yaradılmış, 53-dən çox yeni, 91-dan çox əsaslı təmir olunmuş mədəniyyət və istirahət parklarıdır. Göründüyü kimi, artıq bu parklar, bağlar Bakı sakinlərinin və turistlərin əsl istirahət məkanına çevrilib. Bakı Konqres Mərkəzinin qarşısında salınmış istirahət parkı da bu qəbildəndir. Ümumi sahəsi 7 hektardan çox olan parka gəlib-gedənlərin sayı günbəgün artır. Ərazisində 300-dən çox müxtəlif növ ağac, 50 mindən artıq dekorativ gül və kol bitkiləri əkilib. Burada çinar, tut, dəmirağacı, söyüd və palıd ağaclarının bir neçə növləri var. İtaliyadan gətirilmiş bitki və ağaclar üstünlük təşkil edir.

İstirahət parkında olarkən Bakı şəhər sakini Müseyib Əliyevlə də həmsöhbət olduq. O dedi:

- Mən məzuniyyətimin yarıdan çox hissəsini demək olar ki, Heydər Əliyev Mərkəzi və Təbriz küçəsi arasında yerləşən bu parkda keçirmişəm. Ərazidə 4 müxtəlif istirahət zonası var. İdman zonasında müxtəlif trenajorlar və qurğular qoyulub. Uşaqlar üçün xüsusi zonalar yaradılıb, həmin zonalar 2700 kvadratmetrə yaxın yumşaq səthlə örtülüb. Burada fəvvarə və ümumi sahəsi 2200 kvadratmetrə yaxın 3 göl var. İlin bütün fəsillərində fəaliyyət göstərən sintetik örtüklə təchiz edilmiş buz meydançası da var. Bu istirahət mərkəzi nəinki biz gənclər, hətta yaşlı insanlar, yeniyetmə oğlan və qızlar üçün də gəzməli, dincəlməli və istirahət etməli məkandır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 1 avqust (№ 161).- S.1, 12.